# PAULUN
# TİTƏ MƏKTUBU

## GİRİŞ

Tit Paulun vəzi ilə İsa Məsihi qəbul edən bir yunan gənc idi (1:4). O, Paula müjdəçilik işində köməkçi olmuşdu. Paul gənc köməkçisini Krit adasındakı imanlı cəmiyyətində nəzarətçi kimi xidmət etməyə təyin etmişdi. Bu məktub da ona kömək məqsədi ilə ünvanlanıb. Bu məktubda üç əsas məsələyə toxunulur.

Birinci, Paul bir çox Kritlilərin xasiyyətini nəzərə alaraq Titin yadına salır ki, imanlı cəmiyyətinin rəhbəri necə olmalıdır. Sonra o, cəmiyyətdə imanlıların müxtəlif qruplarını – yaşlı kişiləri və qadınları, gəncləri və qulları necə öyrətmək barədə məsləhətlər verir.

Məktubun sonunda Paul Titə məsihçi davranışına aid öyüdlər verir və xüsusən, sülhsevər və dost münasibətində olmağı, nifrətdən, mübahisələrdən və cəmiyyətdə fikir ayrılığından uzaq durmağı məsləhət görür.

**Kitabın məzmunu:**

1:1-4 Salamlar
1:5-16 Titin Kritdəki vəzifəsi
2:1–3:11 Sağlam təlim və davranış
3:12-15 Xahişlər və xudahafizləşmə

---

1 [1]Allahın qulu və İsa Məsihin həvarisi, mən Pauldan salam! Allahın
seçdiyi insanların iman edib möminliyə uyğun olan həqiqəti dərk
etmələri üçün təyin olundum. [2]Allah yolu əbədi həyat ümidinə əsaslanır.
Bu ümidi yalan danışmayan Allah zaman başlamazdan əvvəl vəd
etmişdi. [3]Xilaskarımız Allah Öz əmrinə görə mənə əmanət edilmiş vəzlə
kəlamını vaxtında aşkar etdi. [4][a]Ümumi imana görə mənə əsl oğul olan
Titə Ata Allahdan və Xilaskarımız Məsih İsadan lütf[b] və sülh olsun!

---

[a] **1:4** 2Kor. 8:23; Qal. 2:3; 2Tim. 4:10 [b] **1:4** *Lütf* – bəzi əlyazmalarda *lütf, mərhəmət.*



The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

### Titin Kritdəki vəzifəsi

5 Tamamlanmamış işləri sahmana salasan və sənə tapşırdığım kimi hər
şəhərdə cəmiyyət ağsaqqalları təyin edəsən deyə səni Kritdə saxladım.
6 [c]Ağsaqqal seçilən şəxs nöqsansız və tək arvadlı olaraq ona sadiq olsun.
Övladları imanlı olmalı, mənəviyyatsızlıqda ittiham olunan yaxud
itaətsiz olmamalıdır. 7 Çünki cəmiyyət nəzarətçisi Allahın iş idarəçisi
olduğuna görə nöqsansız olmalıdır. Dikbaş, hirsli, şərab düşkünü,
zorakı, haqsız qazanca həris olmamalı, 8 əksinə qonaqpərvər, yaxşılığı
sevən, ağıllı-kamallı, saleh, müqəddəs, nəfsinə hakim olmalıdır. 9 Həm
başqalarına sağlam təlimlə nəsihət verməyə, həm də ona qarşı çıxanları
təkzib etməyə qadir olsun deyə aldığı təlimə uyğun olan etibarlı kəlamı
bərk tutmalıdır.
10 Çünki, xüsusilə, sünnət tərəfdarları arasında bir çox itaətsiz,
boşboğaz və saxtakar insanlar var. 11 Onları sakitləşdirmək lazımdır.
Çünki onlar haqsız qazanc əldə etmək üçün lazımsız şeyləri
öyrədərək bəzi ailələri tamamilə alt-üst edirlər. 12 Onlardan biri – öz
peyğəmbərlərindən biri belə demişdir: «Kritlilər daima yalançı, azğın
heyvan, tənbəl qarınquludur». 13 Bu şəhadət etibarlıdır. Ona görə də
onları sərt bir şəkildə məzəmmət et ki, imanları sağlam olsun, 14 Yəhudi
əfsanələrinə və həqiqətdən dönən insanların əmrlərinə qulaq asmasınlar.
15 Paklar üçün hər şey pakdır, ləkəli imansızlar üçünsə pak heç bir şey
yoxdur. Amma onların həm düşüncəsi, həm də vicdanı ləkələnmişdir.
16 Onlar Allahı tanıdıqlarını iqrar edirlər, amma əməlləri ilə bunu inkar
edirlər. İyrənc və itaətsizdirlər, heç bir yaxşı iş görməyə yaramazlar.

### Sağlam təlimin əhəmiyyəti

2 1 Sənsə sağlam təlimə uyğun olanı öyrət. 2 Yaşlı kişilər ayıq, ləyaqətli,
ağıllı-kamallı, imanda, məhəbbətdə və dözümdə sağlam olsunlar.
3 Yaşlı qadınlar da eyni şəkildə müqəddəslərə yaraşan tərzdə davransınlar.
Böhtançı, şərab düşkünü olmasınlar və xeyirli şeyləri öyrədərək 4 tərbiyə
etsinlər ki, gənc qadınlar ərlərini və uşaqlarını sevsinlər, 5 ağıllı-kamallı,
ismətli, evdar, xeyirxah, öz ərlərinə tabe olsunlar. O zaman Allahın
kəlamına küfr olunmaz. 6 Gənc oğlanlara da ağıllı-kamallı olmaq üçün
nəsihət ver. 7 Yaxşı işlər görərək hər şeydə özünü nümunə göstər. Təlimdə
dürüst və ləyaqətli[d] olaraq 8 tənqid olunmaz sağlam sözlər danış ki, sənə
qarşı çıxanlar bizim haqqımızda pis bir söz deyə bilməyib utansın.
9 Qulları başa sal ki, hər şeydə öz ağalarına tabe olsunlar, onları razı
salsınlar. Qoy cavab qaytarmasınlar, 10 oğurluq etməsinlər, amma hər

---

[c] **1:6-9** 1Tim. 3:2-7 [d] **2:7** *Dürüst və ləyaqətli* – bəzi əlyazmalarda *dürüst, ləyaqətli və əxlaqlı.*

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

baxımdan etibarlı olduqlarını göstərsinlər. Beləliklə, Xilaskarımız Allahın
təlimini hər cəhətdən cazibəli etsinlər.
11 Çünki Allahın bütün insanlara xilas gətirən lütfü zühur etdi. 12 Bu
lütf bizə allahsızlığı və dünyəvi ehtirasları rədd edib, bu dövrdə ağıllı-
kamallı, saleh və möminliyə uyğun bir ömür sürməyi öyrədir. 13 Bu ərəfədə
bəxtiyarlıq gətirən ümidimizin gerçəkləşməsini, ulu Allah və Xilaskarımız
İsa Məsihin izzətinin zühurunu gözləyək. 14 [e]O Özünü bizim üçün fəda etdi
ki, bizi hər cür qanunsuzluqdan satın alsın, təmizləyib Özünə məxsus və
yaxşı işlərə səy göstərən bir xalq yaratsın. 15 Bunları tam bir səlahiyyətlə
bildir, nəsihət ver və məzəmmət et. Qoy heç kim sənə hörmətsizlik etməsin.

### İmanlılara yaraşan rəftar

3 1 İmanlılara xatırlat ki, başçılar və hakimlərə tabe olub itaət etsinlər. Hər
cür xeyirli iş görməyə hazır olsunlar. 2 Heç kimə şər atmasınlar, davakar
deyil, mülayim olsunlar və bütün insanlarla həlim davransınlar. 3 Çünki
bir zamanlar biz də ağılsız, itaətsiz, yolunu azmış, müxtəlif ehtiraslar və
zövqlərə qul olan, kin, paxıllıq içində yaşayan mənfur və bir-birimizə nifrət
edən adamlar idik. 4 Amma Xilaskarımız Allah xeyirxahlığını və insana olan
sevgisini açıq göstərdiyi zaman 5 bizim salehliklə etdiyimiz əməllərlə deyil, Öz
mərhəmətinə görə bizi xilas etdi. Bunu bizi yumaqla, yəni Müqəddəs Ruhun
bizi yenidən doğuzdurub təzələməsi ilə etdi. 6 Allah Xilaskarımız İsa Məsih
vasitəsilə üzərimizə bol-bol Müqəddəs Ruhu tökdü ki, 7 Onun lütfü ilə saleh
sayılıb ümidimiz olan əbədi həyatın varisi olaq. 8 Bu söz etibarlıdır.
Mən bunların üzərində dayanmağını istəyirəm ki, Allaha iman etmişlər
xeyirxah işlərlə məşğul olmağa diqqət yetirsinlər. Bu, insanlar üçün
xeyirli və faydalıdır. 9 Lakin axmaq mübahisələrdən, nəsil şəcərələrindən,
münaqişələrdən, Qanunla bağlı dava-dalaşlardan uzaq dur. Çünki
bunlar faydasız və boş şeylərdir. 10 Təfriqəçi adamdan birinci və ikinci
xəbərdarlıqdan sonra əlaqəni kəs. 11 Belə adamın yolunu azmış və
günahkar olduğuna əmin ola bilərsən. O öz-özünü məhkum etmişdir.

### Xahişlər və xudahafizləşmə

12 [f]Mən Artema və ya Tixiki yanına göndərən kimi çalış ki, yanıma,
Nikopolisə gələsən. Çünki qışı orada keçirməyi qərara almışam.
13 [g]Qanunşünas Zena ilə Apollonu səylə yola sal, qoy onların heç bir şeyə
ehtiyacı olmasın. 14 Qoy bizimkilər də təcili ehtiyacları ödəmək üçün
xeyirli işlərlə məşğul olmağı öyrənsinlər ki, bəhrəsiz qalmasınlar.
15 Yanımdakıların hamısı səni salamlayır. Bizi sevən imanlılara salam söylə.
Hamınıza lütf olsun!

---

[e] **2:14** Çıx. 19:5; Qanun. 4:20; 7:6; 14:2; 1Pet. 2:9 [f] **3:12** Həv. 20:4; Ef. 6:21-22; Kol. 4:7-8;
2Tim. 4:12 [g] **3:13** Həv. 18:24; 1Kor. 16:12

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation